Əli Ömərоviç Hüseynov

UOT:330.1:330.8; JEL: B10; B19.

Azərbaycanda inflyasiya proseslərinin devalvasiyalarla tənzimlənməsi "keynsçilik" və "klassik" məktəblərinin prizmasında

Xülasə

Məqalədə Azərbaycan iqtisadiyyatında inflyasiya proseslərinin tənzimlənməsində subyektiv, volyuntar yanaşmaların, nəticə etibarı ilə devalvasiya tipli pul islahatlarının keçirilməsi zərurətinin yaranmasına təsirləri barəsində müəllifin yanaşması öz əksini tapmışdır. Məqalənin məqsədi, belə tənzimləmələrin daha çox hansısa bir konkret iqtisadi məktəbin elmi-nəzəri platforması əsasında aparılmasının vacibliyini vurğulamaqdır. Müvafiq dövlət qurumları və bu proseslərlə məşğul olan mütəxəssislər tərəfindən nəzərə alınması onun tətbiqi əhəmiyyəti ola bilər. Məqalənin orijinallığı qeyd olunan yanaşmanın müəllifə məxsus olmasıdır. Məqalə özünə məxsus yeni metodikaya zərurəti ola biləcək iri həcmli elmi-tədqiqat əsəri olmadığından, məhz bu məqalənin yazılması üçün tərtib edilmiş metodiki komponentlərə malik deyildir və "klassik" formada yazılmışdır. Hansısa bir yeni fenomenin tədqiqinə həsr olunmuş elmi-tədqiqat əsərinin nəticələrinin ictimailəşdirilməsinə yox, mövcud problemlərə diqqətin güclənməsinə həsr olunduğundan, hansısa bir əhəmiyyətli elmi-nəzəri yeniliklər əldə edilməmişdir.

Açar sözlər: *devalvasiya, qiymət artımı, üzən məzənnə, pulun alıcılıq qabiliyyəti*

Giriş

Məlum olduğu kimi, 44 günlük II Qarabağ müharibəsi zəfərlə başa çatmışdır. Təcürbə göstərir ki, müharibələr yalnız hərbi və siyasi müstəvilərdə yox, iqtisadiyyatda da özünün təsirlərini göstərdi. Şübhəsiz ki, istənilən müharibələrin, sonrakı bərpa işləri başa çatana qədər, iqtisadiyyata mənfi təsiri qaçılmazdır. Bu yalnız çoxsaylı dağıntılarla və "əmək (insan) ehtiyatlarının" ən məhsuldar seqmentindəki (18-50 yaş qrupundakı) böyük itkilərlə (ölənlərlə, əlil olanlarla və s.) bağlı deyil. Bu həm də o dövrdə istehsalın zəifləməsi və ehtiyatların azalması və digər çoxsaylı amillərlə əlaqədardır. Türkmənistan, Şimali Koreya kimi ölkələrin, yəqin ki, daxili siyasi konyunkturaya uyğun olaraq, özlərində mövcudluğunu inkar etmələri istisna olmaqla, dünyanın bütün qalan ölkələrini bürümüş "korono-virus (COVİD-19)" epidemiyası ilə bağlı tətbiq olunan çox ciddi məhdudiyyətlər də, müharibənin təsiri ilə yanaşı Azərbaycan iqtisadiyyatına mənfi təsir edən amillərdən biri oldu. Bu dövrdə ölkənin əksər müəssisələrinin istehsalı xeyli zəiflədiyi halda, istehlakın demək olar ki, sabit qalması və hətta, müharibə ilə bağlı müəyyən qədər artması, təbii olaraq ehtiyatların azalmasına səbəb oldu. Bütün bunlar da, görülən bütün inzibatı tədbirlərə baxmayaraq, əmtəə bazarlarında qiymətlərin artımına təsirsiz ötüşə bilməzdi. Bundan da savayı, son illər ərzində əsas istehlak mallarının və xidmətlərin demək olar ki, hamısında, o cümlədən də ictimai nəqliyyatda gediş haqlarının, su-kanalizasiya tariflərinin, digər əmtəə və xidmətlərin qiymətlərinin də müvafiq olaraq artdığı halda, manatın dollar qarşısındakı məzənnəsinin sabit qalması və hətta, cüzi də olsa "bərkiməsi" prosesləri, iqtisadiyyatın elmi-nəzəri əsasları baxımından paradoksal xarakter daşıyır və bunun əsas səbəblərinin təhlil edilməsinə ehtiyac yaranır.

Azərbaycanda inflyasiya proseslərinin devalvasiyalarla tənzimlənməsinin özünəməxsusluqları

Ümumiyyətlə, təqribən son 20 ilin müşahidələri göstərir ki, hökumətin iqtisadi siyasətinin özünəməxsuslarına görə, Azərbaycanda qiymət artımı və hətta, inflyasiya gözləntilərinin proqnozlaşdırılmasının praktiki əhəmiyyəti hələ ki, kifayət deyil. Çünki, bu

©*Əli Ömərоviç Hüseynov i.e.d., dos. AMEA İqtisadiyyat İnstitutu. E-mail: huseynovali1966@gmail.com*
© *AMEA İqtisadiyyat İnstitutu*
© *www.economics.com.az*

əsasən iqtisadiyyatın elmi-nəzəri qanunlarına uyğun və yaxud da bu qanunlarla izah oluna biləcək tərzdə baş vermir. Belə ki, Dövlət Statistika Komitəsinin (DSK) rəsmi göstəricilərinə əsasən, inflyasiyanın səviyyəsi kifayət qədər aşağı "sürünən inflyasiya" hədlərində olduğu, hətta, onun "keynçilərin" başlıca prinsiplərindən olan "saxta dollar effekti" əsasında iqtisadiyyatda stimullaşdırıcı rolunun maksimum həddinə qədər çoxaltmaq üçün, bir qədər də artırmaq lazım gəldiyi halda, Mərkəzi Bank və hökumət tərəfindən belə demək mümkündürsə, tam qəfildən "devalvasiya" tipli pul islahatı keçirilə bilər. Mərkəzi Bank tərəfindən 2015-ci ildə iki dəfə keçirilən belə pul islahatlarının bilavasitə öncəsi, ən yüksək səviyyələrdə, əhalini narahatçılıq üçün heç bir səbəb olmadığına əmin edirdi. Buna nümunə olaraq, Mərkəzi Bankın bu dövrdəki mövqeyini və manatın məzənnəsinin yaxın perspektivlərdə, o da dünya iqtisadiyyatında baş verə biləcək "fors major" hadisələrlə bağlı maksimum 0,01-0,02 qəpik dəyişilə biləcəyi ilə bağlı yanaşmalarını göstərmək olar. Amma, bu dövrdə 21 fevralda manatın devalvasiyası keçirildi və məzənnəsi dollar qarşısında 0,78 manatdan, 1,05 manata qədər ucuzlaşdırıldı. Bu da həmin yanaşmanın sonra əhali arasında müəyyən "şoka" səbəb olması ilə nəticələndi. Ən anlaşılmayanı da bu oldu ki, Mərkəzi Bankın rəhbərləri keçirilən devalvasiyadan bilavasitə sonrası, bunun xeyli öncədən hazırlanmış və hərtərəfli əsaslandırılmış çox vacib və ölkə iqtisadiyyatı üçün çox lazımi "addım" olduğunu bildirdilər. Belə ki, bir sıra rəsmi qurumların bəzi ziddiyyətli mövqeyi təbii olaraq əhali arasında anlaşılmazlığı, çaşqınlığı və nəticə etibarı ilə həmin qurumlara inamsızlığı artıran amillərdəndir. Bu səbəbdən, pul islahatlarının mahiyyəti də, əhali tərəfindən gözləntilərində, onların "proqnozlaşdırılması"da müvafiq qədər öz mahiyyətini itirir.

Pul islahatlarının "proqnozlaşdırılması"nın praktiki olaraq qeyri-mümkün olduğu qeyri-sabit şəraitdə biznesin inkişaf etdirilməsi üçün uzunmüddətli strategiyaların, strateji planların qurulması və həyata keçirilməsinin çətin və bəzən də qeyri-mümkün olması, xüsusən də "xırda", "kiçik" və "orta" biznesin inkişaf etdirilməsi üçün problemlər yaradır. Bu da həm firmalar arası, həm də nəticəsi olaraq bütövlükdə ölkənin rəqabət qabiliyyətinə mənfi təsir göstərir. Bu nöqteyi-nəzərdən dövlətin müvafiq rəsmi qurumlarının və bu proseslərin tədqiqi ilə məşğul olan mütəxəssislərin diqqətini, onların yaranması səbəblərinə yönəltmək çox vacibdir. Çünki, bununla belə problemlərin daha operativ, xüsusən də iqtisadiyyatın ən ali maraqlarına - əhalinin maddi-rifah halına uyğun tənzimlənməsinə müəyyən nəzəri töhfə verilir. Şübhəsiz ki, müvafiq rəsmi dövlət qurumlarının rəhbərliyinin bu problemlərə diqqəti artırması zəruridir:

- Rəsmi qurumların cəmiyyət qarşısındakı borclarına daha diqqətlə yanaşması, fəaliyyətlərini cəmiyyətin maraqlarına uyğun təkmilləşdirilməsi dövlət idarəçiliyinin ən ali məqsədinə ölkə əhalisinin maddi-rifah halının mümkün qədər yüksəldilməsinə uyğun tənzimləməyə təsir edər.
- Bir çox beynəlxalq reytinqlərdə, o cümlədən də, "Qlobal Rəqabətlilik İndeksinin" müvafiq indikatorları üzrə, məsələn inflayasiyanın və dövlət borclarının səviyyələrinin nəzərə alındığı "Makroiqtisadi vəziyyət (sabitlik)" indikatoru üzrə Azərbaycanın mövqeyi daha da yaxşılaşar.

Bununla belə, hökumətin bu sahəni tənzimləməsi, bir çox hallarda, şəxsi qənaətimizə görə, hansı bir elmi-nəzəri əsaslara, iqtisadi qanunlara kifayətqədər əsaslanmır. Bunun da əsasən Azərbaycanda iqtisadi inkişafın öz milli" xüsusiyyətləri, adət-ənənələri ilə əsaslandırılmasına cəhdlər edilir. Beləliklə də "iqtisad" elminin bütün qanunlarının və kriteriyalarının "obyektivliyi" şübhə altına salınır. Belə ki, illər əvvəl elan olunmasına baxmayaraq Azərbaycanın daxili valyutası olan manatın "üzən məzənnə" sisteminə keçməsinə imkan verilməməsi və onun "sabit" saxlanılması buna dəlalətdir. İnflyasiyanı və manatın mübadilə kursunu daima nəzarətdə saxlamaq və "alıcılıq pariteti" əsasında təbii və

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

"təkamül" yolla tənzimləmək əvəzinə, illərlə sabit saxlanılmasına və əhali üçün tamamilə gözlənilməz qəfilliklə, "təkanvari" devalvasiyalarla tənzimlənmək üsuluna üstünlük verilir. Dollarla olan əmanətlərin faizlərinin minimuma endirilməsi, manatla olan əmanətlərin faizlərinin isə mümkün qədər qaldırılması ilə "şirnikləşdirmə"də əhalinin bu "tələyə" yönəldilməsi məqsədi ilə bağlı ola biləcəyinin ehtimalı yaranır.

Buna görə də, bütün əmtəələrin qiymətlərinin, yanacağın, kommunal xərclərinin kifayət qədər qalxmasına baxmayaraq, manatın dollar qarşısında məzənnəsi nəinki zəifləmir, hətta azacıq da olsa bərkiyib. Belə ki, son bir neçə il ərzində dəyişilməz olaraq qalan 1 dolların 1,70 manata olan nisbəti "çərçivəsində", əksər banklarda dolların alışı əvvəllər əsasən 1,70 – 1,71 civarında fərqlənsə də, hazırda bir çox banklarda 1,68 qədər enib. Bu da iqtisadi nəzəriyyədə bir mənalı olaraq paradoksal haldır. İqtisadiyyatın da subyektiv-valyuntar idarə olunmasına dəlalət edir. "Makroiqtisadi stabilliyə" və inflyasiyanın səviyyəsinə kifayət qədər güclü təsiri olan daha bir amil də "dövlət borcları"dır. Çox vacib əhəmiyyət daşıyan bu amil üzrə də xeyli problemlər mövcuddur. Şəxsi fikrimizə görə, bu sahənin tənzimlənməsində ən böyük problem onun "elmi-nəzəri" bazasındadır. Belə ki, əsrlər boyu bütün iqtisadi məktəblər və dünyanın ən aparıcı iqtisadçı alimləri həmişə dövlətin iqtisadiyyata müdaxiləsinin qəti əleyhinə olublar. "İqtisad" elmində bu istiqamətdə ən qəti mövqe tutan "klassik məktəb" və onun ən aparıcı alilərindən olmuş, pulla bağlı problemlərin təhlilində hələlik bərabəri olmayan A.Smit çıxış etmişdir. Onları ən çox narahat edən də, hökumət məmurlarının, "dövlətin" adından sui-istifadə edərək etdikləri hədsiz israfçılıqlar və nəticəsi olaraq "dövlət borcları" olmuşdur. Qeyd olunan iqtisadi məktəblər tam əmin idilər ki, hökumət məmurları hər vəcdlə gizlətməyə çalışmalarına baxmayaraq, məhz öz maraqları naminə, əhalinin şüuraltı qorxu hiss etdiyi "dövlətin" adından sui-istifadə edərək, həmişə iqtisadi proseslərə volyuntar və subyektiv müdaxilələr etməyə meyllidirlər. Bu da, bəzən çox qısa zaman intervallarında müəyyən müsbət nəticələr versə də, sonradan mütləq iqtisadiyyatın obyektiv təkamülü üçün qat-qat böyük problemlər yaradır. Buna görə də, "dövlətin" iqtisadi proseslərə volyuntar və subyektiv müdaxilələr qəti etiraz etmiş və hətta, çox məşhur "Lesse fer" prinsipinin irəli sürmüşdülər. Hökumət məmurları da, nəhayət ki, ən müxtəlif iqtisadçı alimlərin eyni fikirdə olduqları bu "monolit" müddəada "çat" yaratmaq üçün imkan tapıblar. Belə ki, başlıca olaraq "klassik" məktəbin və A.Smitin qeyd olunan müddəalarına qarşı, öz əməllərinə "elmi don" geydirəcək və müəyyən qədər də "bəraət" qazandıracaq nəzəriyyənin ərsəyə gəlməsinə nail olublar. Bu proseslərdə, ən yüksək səviyyələrdə dövlət vəzifələrini icra etmiş, buna görə də "ictimai" maraqlardan həmişə dövlətin maraqlarını üstün tutan "nəzəriyyə" yaratmış J.M.Keyns fərqlənir. Qeyd olunan məqsədlərə uyğun olaraq Keyns iddia etməyə başlamışdır ki, bazar iqtisadiyyatı A.Smitin qeyd etdiyi "görünməyən əlin" köməyi ilə çıxa bilməyəcəyi böhranlara düşə bilər. Onu da oradan yalnız "dövlətin əli" çıxarda bilər. Bununla da iqtisadiyyat dövlət məmurlarının "tənzimləyici əllərinə" və əməllərinə möhtacdır. Bunun üçün o hətta, ən "parlaq" nümunə olaraq, 1929-1933-cü illərdə Qərb dünyasının bazar iqtisadiyyatını bürümüş "Böyük depressiya" böhranı ilə, o dövrdə SSRİ-də Stalinin "dəmir yumruğu" ilə keçirilən "dövlət planlaşdırmasını" və dövlət tərəfindən belə, çox ciddi tənzimlənən "planlı iqtisadiyyatın" əldə etdiyi yüksək nəticələri müqayisə edirdi. Açıq rəğbət bəslədiyi, daha dərindən öyrənmək üçün, hətta, SSRİ-yə bir neçə dəfə səfərlər etdiyi Stalinin dövlət tənzimlənməsi "metodologiyasını" iqtisadi böhranlardan qaçmaq üçün ən əsas vasitələrdən birisi sayırdı. Bu həm də, onun fikrincə, dövlətin iqtisadi proseslərinin tənzimləməsinin, "azad bazar" sistemindən üstünlüyünün danılmaz və açıq-aydın praktik sübutu idi. Bu da artıq qeyd olunduğu kimi, hökumətin əksər məmurlarının, A.Maslounun "tələbat piramidasına görə, həmişə "ictimai maraqlardan" üstün tutacaqları "şəxsi maraqlarına" tamamilə uyğun idi. Sonradan dövlətin iqtisadiyyata böyük vüsətlə daim artan

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müdaxilələri də məhz bu nəzəriyyəyə əsaslanmağa başladı. Çünki, Qərbin dövlət məmurları Stalini sevməsələr də, onun metodologiyası ilə iqtisadiyyatın idarəçiliyinin onların əllərində "cəmləşməsini", bununla da "dövlət israfçılığı" üçün çox yaxşı imkanların yaranmasını çox bəyənirdilər. Ona görə də Keyns də, nəzəriyyəsi də çox tez bir zamanda "dünya şöhrətinə" çatmışdılar. Bununla belə, tam əminliyimizlə qeyd edə bilərik ki, bundan sonra dünya iqtisadiyyatında Keynsin izahını vermədiyi, məsələn, N.D.Kontratyevin "uzun dalğalarının dibi" ilə yox, məhz dövlətin, daha doğrusu hökumət məmurlarının korrupsiya əməlləri və "dövlət israfçılığı" nəticəsində yaranan böhranlar bir-birilərini "əvəzləməyə" başladılar. Çarəsiz qalıb, məhz "keynsçiliyin" əleyhinə olan "monetarizm" nəzəriyyəsini yaratmalı oldular. Şübhəsiz ki, J.Keyns və onun tərəfdarı olan vəzifəpərəst alimlər, çox yəqin ki, bilərəkdən, qeyri-iqtisadçıların bir o qədər də diqqət verməyəcəkləri, amma, prosesin mahiyyətini tamamilə dəyişən bir neçə məqamı "unutmağa" çalışırdılar. Belə ki:

- ⇨ N.D.Kontratyevin "uzun dalğalarının" bütün növ (planlı, bazar və s.) makroiqtisadi proseslərə təsiri.
- ⇨ İqtisadiyyat kimi qeyri-determinik sistemlərin inkişafının, əsasən dörd fazadan ibarət dövri (tsiklik) xarakter daşıması və "böhran" fazalarının təbiiliyi.
- ⇨ A.Maslounun "tələbat piramidasına" əsasən, dövlət məmurlarının heç vaxt ictimai maraqları, özlərinin korrupsiya əməlləri ilə bağlı olan və "dövlət israfçılığını" ağlasığmaz hədlərə çatdırn şəxsi maraqlarından üstün tutmasının qəti olaraq mümkün olmaması. Məhz buna görə "azad bazar" iqtisadiyyatlarının A.Smitin qeyd etdiyi "görünməyən əlin" köməyi ilə çıxa bilməyəcəyi böhranlara düşdüyünü.
- ⇨ Məhz böhran dövründə "dövlət israfçılığı" və korrupsiya əməlləri üçün imkanların genişləndiyini, nəinki mövcud resursları daha çox mənimsəmək, hətta, mümkün qədər daha çox "borclanmaqla" həmin boc pulları da öz məqsədlərinə uyğun "xərcləmək" imkanlarının yaranmasını.
- ⇨ Həmçinin, hökumətin əksər məmurların çox da dərin olmayan iqtisadi böhranların yaranmasında maraqlı olacaqlarını göstərmək olar.

Şübhəsiz ki, bu siyahını xeyli artırmaq da olar. Çünki, Keynsin və onun tərəfdarlarının izahını vermədikləri və yaxud da belə izahların "hərtərəfli" olmadığı digər məqamlar da çox idi. Bununla belə, artıq qeyd olunduğu kimi, bu nəzəriyyə dövlət məmurları tərəfindən, onların maraqlarına tam uyğun olduğundan və onların iqtisadiyyata öz maraqları naminə bütün neqativ müdaxilələrinə "elmi bəraət" qazandırdığından dərhal və hamılıqla qəbul edildi. Dövlətin "iqtisadi siyasətini" də yalnız bu nəzəriyyə əsasında qurmağa başladılar. Bununla da həm bu nəzəriyyə, həm də onun hazırlanmasına başçılıq etmiş Keyns, digər məktəblərin nümayəndələri olan alimlərinin hətta arzu edə bilməyəcəkləri qədər tezliklə "dünya şöhrətinə" və yüksək dövlət vəzifələrinə çatdılar. Məsələn, 1944-cü ildə "Bretton-vuddz" konfransında İngiltərənin nümayəndələrinin qrupuna məhz Keyns başçılıq edirdi. Belə bir elmi-nəzəri "platformaya" malik olandan sonra "dövlət israfçılığı" daha da gücləndi. Ona görə də hökumətlərə dövlət büdcəsindən ayrılan pul vəsaitləri heç vaxt bəs etmir və ən müxtəlif "borclara" girirlər. Bunu da məhz Keynsin irəli sürdüyü "saxta dollar" effekti ilə əsaslandırmağa çalışırlar. Sonra da, dövlət büdcəsindən həmin borclara yalnız "xidmət etmək" üçün çox böyük əlavə vəsaitlər götürürlər.

Azərbaycanda 2014-2015-ci illərdə milli valyutanın devalivasiyaya uğramasında dünya bazarlarında neftin qiymətinin üç dəfə aşağı düşməsi əsas rol oynamışdır. Təbii ki, Azərbaycan da daxil olmaqla, resursdan asılı olan bir çox ölkələrin iqtisadiyyatına bu ağır zərbə vurmuşdur. Belə şoku Rusiyada yaşamışdır, çünki bu ölkədə neft və qazdan asılıdır. Təəssüflər olsun ki, biz iqtisadiyyatın qeyri-neft sahələrinin inkişafını demək olar ki, əldən vermişik, bu, belə vəziyyətdə çox faydalı olardı. Devalvasiyanın qarşısını

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

almaq və ya heç olmasa əhatə dairəsini azaltmaq olardımı? Məncə, bəli, əgər əvvəllər valyuta ilə spekulyativ əməliyyatlar azadlığını ciddi nəzarət altına alırdılarsa. Heç kim möhtəkirləri məhdudlaşdırmayıb, ölkəni beynəlxalq valyuta bazarından çıxarmayıb. Ona görə də manatla spekulyativ əməliyyatlar sadəcə olaraq Azərbaycan iqtisadiyyatı üçün "qəddar zarafat" oynamışdır. Göründüyü kimi, möhtəkirlərin valyuta bazarında çılğınlaşmağa başlayacağı dövrlər hələ qarşıdadır. Artıq sərt tədbirlər görməyin vaxtıdır. Yeri gəlmişkən, bu barədə prezident İlham Əliyev verdiyi açıqlamalar diqqətə laiyqdir. Azərbaycan Rusiyadan nümunə götürdü və milli valyutanı sərbəst buraxdı. Lakin bəla ondadır ki, bunun üçün vaxt uyğun deyildi - dolların güclü dalğalanması və neftin qiymətinin düşməsi baş vermişdi. Elə etmək lazımdır ki, möhtəkirlər manatın məzənnəsinə təsir göstərməyə çalışmasınlar. Milli valyutanın zəifləməsi, bir qayda olaraq, inflyasiyanın artmasına səbəb olur. Belə valyuta dalğalanmaları ilə əhali və biznes kredit götürməyi dayandırır, hətta faiz dərəcəsinin dəyişməsi artıq xüsusi rol oynamayır.

Azərbaycana mal gətirən idxalçılarla rəqabət getdikcə azaldığından ölkənin daxili bazarında satış üçün nəsə istehsal edənlər də artmışdılar. Bu, həm də investorlar üçün çoxlu imkanlar açır. Yeri gəlmişkən, devalvasiya daşınmaz əmlak və müəssisələrin alınması üçün əlverişli zamandır. İstisna edilmirdi ki, neftin qiyməti bir barel üçün 20 və ya 15 dollar olması o dövrdə daha çox psixoloji həddə hesab olunurdu. Bir qayda olaraq, belə bir vəziyyətdə növbəti devalvasiya dalğası həyata keçirilir. Burada artıq çoxlu pul itkisindən və ümumi yaşayış səviyyəsindən danışmaq olardı. Bununla belə, bunun müsbət tərəfi də vardır. Belə ki, idxal inanılmaz dərəcədə bahalaşır və bu, öz sənayelərinin, o cümlədən istehsalatın inkişafına gətirib çıxarır. Və nəticədə devalvasiyadan sonra iqtisadiyyat bərpa olunmağa başlayır. Düzdür, bu adətən çox yüksək qiymətə gəlir. 1998-ci ildə Rusiyadakı böhranı xatırlamaq mümkündür. Belə ki, artıq 1999-cu ildə böhrandan sonra iqtisadi artım müşahidə olunsa da, əhalinin gəlirlərində də kəskin azalma müşahidə olunurdu.

Bloomberg ekspertləri 2014-2015-ci ildə Azərbaycandakı vəziyyəti 1997-ci ildəki "Asiya böhranı" ilə müqayisə ediblər, o zaman Çin iqtisadiyyatının zəifləməsi, eləcə də ABŞ Federal Ehtiyat Sisteminin uçot dərəcələrini artırmaq qərarı bütün regiondakı vəziyyətə təsir edib? Hesab edirik ki, burada vəziyyət tam olaraq eyni deyildir. 1997-ci il böhranı təkcə neft hasil edən ölkələrlə məhdudlaşmırdı. Bu, əslində klassik borc böhranı idi. Amma bənzətmələr aparsaq, bunu 2008-ci ildə neftin 137 dollardan 34 dollara düşdüyü böhranla müqayisə edə bilərik. Müasir reallıqlarda hər şey dövlətin hansı siyasəti həyata keçirməyə başlayacağından asılı olacaqdır. Məsələn, modernləşmə proqramlarına başlanılsa, həm də cəmiyyətin baş verənlərə ən həssas olan yoxsul təbəqəsinə sosial dəstək göstərilsə, təbii ki, devalvasiyanın mənfi təsiri minimal olacaqdır. Devalvasiyanın fəsadlarını yumşaltmaq son dərəcə zəruridir:

- Birincisi, valyuta kreditini qaytara bilməyən şəxslərə vəsaitlər hissə-hissə verilməlidir. Banklar bu insanları əzməməldirlər.
- İkincisi, gəlirlərini tamamilə itirəcək insanlar dövlət dəstəyi almalıdırlar. Xaricdən gətirilən dərmanların eyni olmaması kompensasiya edilməlidir. Ancaq təəssüf ki, nəticələrin qarşısını 100% almaq mümkün olmur.

O dövrdə devalvasiyadan qaçmaq mümkün idimi, hesab etmək olar ki, xeyr. Xüsusən də neftin qiymətinin kəskin enməsi fonunda. Başqa bir məsələ odur ki, devalvasiya daha az sərt formada həyata keçirilə bilərdi. Yəni, "sərbəst üzən"ə keçmək yox, sabit məzənnənin tədricən azalması bəlkə də məqsədəuyğun olardı.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Müasir dövrdə bahalaşma prosesi hələ davam edir. Bu da hökumətin qarşısında əhalinin maddi-rifah halının çox da pisləşməyə qoymamaq üçün çox mühüm vəzifələr qoyur. Başqa sözlə, daim nəzarətdə saxlanılmalı və operativ tənzimlənməli olan inflyasiya proseslərinin mahiyyətinin əsas hissəsi, "ani" xarakter daşıdığından nisbətən daha rahat idarə olunan pul islahatlarına keçirilməsi praktikası davam etdirilə bilər. Bu da hökumət üçün iqtisadi idarəçilik prosesini yüngülləşdirdiyi halda, əhali və kiçik biznes üçün öz pul vəsaitlərinin idarə edilməsini xeyli çətinləşdirmişdir. Çünki, inflyasiyanın "dinamikasına" uyğunlaşmaq üçün müəyyən vaxt ehtiyatına malik olduqları halda, Azərbaycan reallığında əsasən kifayət qədər qəfildən baş verən pul islahatlarına, o cümlədən də devalvasiyalara "uyğunlaşmaq" isə qat-qat çətindir və əksər hallarda isə demək olar ki, mümkün deyil.

Azərbaycanda keçirilən devalvasiyaların, əsasən "qəfildən" keçirilmələrindən də savayı, "planlı" iqtisadiyyatın "iqtisadi amirlik" şəraitindən fərqli olaraq, "bazar" iqtisadiyyatı şəraitində iqtisadi nəzəriyyələr tərəfindən izah oluna bilinməyəcək ən əsas "özünəməxsusluğu" bundadır ki, onların əmtəə bazarında qiymətlərə demək olar ki, təsiri yoxdur və ya çox cüzidir. Yəqin elə bu səbəbdəndir ki, əmtəə bazarında qiymət artımlarının da, iqtisadi nəzəriyyə üçün "paradoksal" olaraq, manatın dollar və digər konvertə olunan valyutalar qarşısında məzənnəsinə demək olar ki, heç bir təsiri yoxdur. Başqa sözlə, 2015-ci ildə kifayət qədər qəfildən baş vermiş iki devalvasiya nəticəsində manatın ucuzlaşması üzündən az qala "şok" vəziyyətinin yaranması, tamamilə təbii olaraq və iqtisadi nəzəriyyənin qanuna uyğunluqlarına əsasən qiymət artımına çox güclü təsir etməli olduğu halda, bu təsir paradoksal olaraq "çox cüzi" adlandırıla biləcək səviyyədə olmuşdu. Dövlət iqtisadiyyata müdaxilələrini nisbətən azaldaraq, əmək haqlarının da, yalnız fundamental elmi tədqiqatlar və buna oxşar sahələr istisna olmaqla, "tələb və təklif arasında tarazlıq həddində" formalaşmasına imkan verərsə, həmin sahələrin əksəriyyətini dotasiyalarla "bəsləmək" lazım gəlməz. Həm də "dotasiyalar" iqtisadiyyatın bütün sahələrində "tənbəllik" yaradan əsas amil olmaqla yanaşı korrupsiya üçün də ən münbit şərait yaradır.

Nəticə

Bütün qeyd edilənlər ölkənin iqtisadi və ya maliyyə sistemlərindəki proseslərin proqnozlaşdırmasını maksimum çətinləşdirir. Bəzi hallarda isə praktiki olaraq qeyri-mümkün edir. Nəticədə, iş adamları üçün heç olmasa ən təqribi proqnozları əsas tutaraq öz biznes planlarını qurmaq imkanları daralır. Bu da öz növbəsində, qeyri-inhisarçı "sərbəst agentlərin" biznesdən və bazardan çəkilmələrinə, "kiçik", "xırda" və hətta, bəzi hallarda "orta" biznesin zəifləməsinə səbəb olur. Ölkə iqtisadiyyatında rəqabət mühitinə mənfi təsir edir. Doğrudur, belə vəziyyət iri inhisarçı şirkətlər üçün daha əlverişlidir. Çünki, bu daha böyük manevr və daha çevik bazar mühitinin dəyişikliklərinə adaptasiya imkanlarına malik "xırda", "kiçik" və "orta" səviyyəli şirkətlər, az da olsa iri inhisarçı şirkətlərin "ayaqlarına dolaşır", müştərilərinin müəyyən hissəsini özlərinə cəlb edirlər. Bununla da, iri inhisarçı şirkətləri "qıcıqlandırır" və az da olsa "rahatlıqlarını" pozurlar. Bu da bazarda rəqabəti gücləndirsə də iri inhisarçı şirkətlərin maraqlarına uyğun olmur. Bu səbəbdən də iri inhisarçı şirkətlər həmişə "xırda", "kiçik" və "orta" səviyyəli şirkətləri "udmağa" və ya heç olmasa "sıradan çıxarmağa" meylli olurlar. Ona görə də, qeyri-inhisarçı "sərbəst agentlərin" biznesdən və bazardan çəkilməsinə, "kiçik", "xırda" və "orta" şirkətlərin sıradan çıxmasında maraqlı olurlar. Bununla bağlı bazarda yaranmış "boşluğu" isə öz maraqlarına uyğun "doldurmağa" çalışırlar. Praktik olaraq qaçılmaz olan növbəti devalvasiyanın, əhali və bazarın qeyri-inhisarçı "sərbəst agentlərin" üçün yaradacağı "şoku" mümkün qədər yumşaltmaq üçün hazırda Azərbaycan iqtisadiyyatında ən azından: hökumətin (dövlətin) obyektiv təkamüldə olan iqtisadi prosesləri, subyektiv və volyuntar yanaşmaları ilə "tənzimləmək" üçün etdikləri müdaxilələr heç olmasa "keynsçiliyin" tövsiyə etdiyi səviyyələrə qədər yumşaldılmalıdır.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

İnflyasiya proseslərinin və manatın məzənnəsinin tənzimlənməsi, yalnız Mərkəzi Bankın valyuta hərraclarına intervensiyaları və (və ya) ayrı-ayrı banklara etdiyi administrativ təzyiqlərlə yox, elə Mərkəzi Bankın özünün illər öncə keçdiyini rəsmən elan etdiyi "üzən məzənnə" prinsiplərinə uyğun həyata keçirilməlidir. Bu yaxın zaman intervallarında baş verə biləcəyi gözlənilən növbəti devalvasiya tipli pul islahatının yarada biləcəyi "təlatümlərin" amplitudalarının mümkün qədər iqtisadi rıçaqlarla tənzimlənməsi üçün çox vacibdir.

Ədəbiyyat

1. "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında qanun".
2. Keyns. J.M // "Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi" – (orijinalın nəşri) London, 1936.
3. Maliyyə Nazirliyinin saytının (http://www.maliyye.gov.az) materialları.
4. Maslou A. // Motivasiya və Şəxsiyyət (Мотивация и личность) – St-Peterburq, 2008.
5. Mərkəzi Bank saytının (www.cbar.az) materialları.
6. Dövlət Statistika Komitəsinin (DSK) rəsmi internet səhifəsi (https://www.stat.gov.az).

Али Омарович Гусейнов

Девальвационное регулирование инфляционных процессов в Азербайджане через призму" кейнсианской "и" классической " школ

Резюме

В статье «Регулирование инфляционных процессов девальвациями в Азербайджане в призме «кейнсианства» и «классических» школ» изложен авторский подход к изучению влияния субъективных, волюнтарных подходов к регулированию инфляции в экономике Азербайджана, на появление необходимости проведения денежных реформ девальвационного типа. Основной целю является обоснование необходимости регулирования экономических процессов, не субъективно-волюнтарными вмешательствами, а на основе научно-теоретической платформы какой-либо конкретной экономической школы. Принятие во внимание со стороны соответствующих государственных учреждений и специалистами в этой сфере, может быть ее прикладным значением. Оригинальность статьи заключается в принадлежности данного подхода непосредственно самому автору. Написана она в «классической» форме и не имеет особых, составленных именно для ее написания «методических» или «методологических» компонентов. Ибо не является научно-исследовательской работой большого объема, для которых, при необходимости составляют отдельную методологическую базу, оптимальную для достижения конкретной цели. Поскольку, статья не была посвящена к обнародованию результатов исследования какого либо нового феномена, по сути заостряло внимание на существующих проблем, не имеет каких либо значимых научно-теоретических новшеств.

Ключевые слова: *девальвация, повышение цен, плавающий курс, покупательная способность денег.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Ali Omarov Huseynov

Regulation of inflation processes in Azerbaijan by devaluations in the prism of" Keynesian "and" classical " schools

Summary

The author's approach to the regulation of inflationary processes in the economy of Azerbaijan has been reflected in the article on the subjective, volyuntar approaches to the regulation of inflationary processes, as a result of which there is a need to conduct devaluation type monetary reforms. The purpose of the article is to emphasize the need for such arrangements to be carried out more on the basis of the scientific and theoretical platform of a particular economic School. The importance of its application may be taken into account by the relevant government agencies and specialists involved in these processes. The originality of the article is that the mentioned approach belongs to the author. Since the article is not a large-scale research work, which may be a necessity for a new methodology, it does not have the methodological components designed for writing this article and is written in "classical" form. Since the scientific-research work devoted to the study of some new phenomenon is devoted not to publicizing the results, but to strengthening the attention to existing problems, no significant scientific-theoretical innovations have been achieved.

Keywords: *devaluation, price increase, floating exchange rate, purchasing power of money*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 06.12.2021.
Çapa qəbul olunub: 13.12.2021.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az